# YALAN

## (sənədli hekayə)



*Sabir HÜSEYNOV,*
*“Kənd həyatı” qəzetinin baş redaktoru, AJB-nin üzvü, prezident mükafatçısı*

...Ondan elə bil dünyanın acığını çıxmışdılar; rəngi, ruhu avazımışdı, özünü yaxşı hiss etmirdi. İş yoldaşı İrina Drazdova yananlıqla:

- Nə olub, tökülüb itirsən, halın heç xoşuma gəlmir.

İlqar gecə narahat yatdığını, ağrıdığını dedi.

İrina Drazdova təcili yardım çağırdı. Həkim Fərhad Mirxudayev İlqarı müayinə etdi “kor bağırsaq”dan əziyyət çəkdiyini dedi, sonra da gözlərini azacıq qıyıb dedi:

- Əməliyyat olmalıdır, bu xəstəlik zarafat sevmir.

İlqar ayaqlarını sürüyə-sürüyə maşına mindi. İki saylı kliniki xəstəxanada müayinə olundu. Həkim dedi ki, İlqara soyuq olub, diaqnoz səhv qoyulub.

İlqar təəccüb içində iş yerinə qayıtdı. Komsomol komitəsində şöbə müdiri vəzifəsində çalışırdı. Universiteti qurtarmışdı, partiya işində çalışmaq, gələcəkdə raykomda yaxşı bir vəzifə tutmaq arzusu ilə yaşayırdı. İş yoldaşları ondan razı idi. Heç vaxt səsinin tonunu qaldırmaz, heç kimin qəlbinə dəyməzdi.

Şəmsiyyə xanım ona çay gətirdi, nəvazişlə dedi:

- Soyutma, iç.

İlqar razılıq etdi:

- Sağ ol Şəmsiyyə, ürəyim bulanır, özümü pis hiss edirəm.

İlqarın halı get-gedə pisləşirdi. Şəmsiyyədən xahiş etdi ki, təcili yardım çağırsın. Əlini ağrı olan səmtə yaxınlaşdırdı:

- Dözə bilmirəm, ağrılarım artıb.

Şəmsiyyə xanım komsomol komitəsinin birinci katibi Rauf müəllimə İlqarın xəstələndiyini dedi. Rauf müəllim təcili yardım çağırdı, İlqarı yenidən xəstəxanaya apardılar. 1977-ci il aprelin 1-i idi... Saat beş radələrində İlqarı əməliyyat etdilər. Yanında doğma, əziz bir adam yox idi. Ağrıları onu çox incidirdi. Ata-anası, qardaş-bacıları gözü önündən getmirdi... Əməliyyat ağır keçmişdi...

İlqarın xəstələnməsi xəbəri kəndə iki gün sonra çatmış, Əsəd kişi oğluna baş çəkmək üçün Bakıya gəlmişdi.

İlqarın dostluq etdiyi, ailə həyatı qurmaq istədiyi Sevinc adlı bir qız var idi. O, xəstəxanada həkim işləyirdi. İlqarın xəstələndiyini o da iki gün sonra eşitmişdi. Səhər tezdən işdən icazə alıb İlqara baş çəkməyə gəlmişdi. Xəstəxanaya Əsəd kişi ilə eyni vaxtda çatmışdı. Qapıçı Əsəd kişini sorğu-suala tutur, saat 5-də gəlməyini deyirdi. Sevinc xanım əlini cibinə atdı. Üç rublu (o vaxtkı pul vahidi) qapıçıya verib özünü cərrahiyyə şöbəsinə, İlqar yatan palataya çatdırdı. Nigaran baxışlarını ona zillədi:

- Zəng edəydin, gələrdim, yaralarına məlhəm olardım, gecə yanında qalardım...

Sevincin də, İlqarın da Əsəd kişinin qapını açıb onlara baxmasından xəbərləri yox idi. Əsəd kişi qapının yanında dayanmışdı, ani olaraq düşündü:

- Yəqin anasına dediyi qızdı.

Əsəd kişi oğlunun üz-gözündən öpdü. Sevinc ayaq üstə dayanmışdı, sanki sehrlənmişdi, heyrətlə dedi:

- Qapıda gördüyüm kişidi, deməli İlqarın atasıdı...

İlqar da, Sevinc də qızarmışdı. Sanki günah üstündə tutulmuşdular. Əsəd kişi onların halını görüb:

- Oğlum, narahat olma, yəqin istədiyin qızdır, - dedi və xəlvəti bir göz də vurdu.

İlqar utanıb gözlərini yumdu. Əsəd kişi saat 5-dən sonra gələcəyini deyib, palatadan çıxmaq istəyəndə Sevincə tərəf döndü: - Qızım, bəlkə məni qapıya qədər ötürəsən.

Sevinc əl çantasını götürüb təbəssüm dolu baxışlarını ona dikdi:

- Gedək əmi.

Onlar palatadan çıxanda İlqar pəncərənin önünə keçdi. Atası Sevinclə xəstəxananın həyətindəki oturacaqlardan birində oturub şirin-şirin söhbət edirdi.

Təxminən yarım saatdan sonra Sevinc geri qayıtdı. İlqarın narahat olduğunu görüb Əsəd kişi ilə aralarında olan söhbəti ona anlatdı:

- Ailəmiz haqqında, harada işləməyimi, səninlə nə vaxtdan tanış olduğumu soruşdu... Suallarına ətraflı cavab verdim. Yaxşı adamdı, inanıram ki, anan da yaxşı insandı. Mən də xoşbəxtəm ki, belə bir ailənin gəlini olacam.

İlqar xeyli müddət əllərini Sevincin əllərindən çəkmədi. Atasına ürəyində - sağ ol, ata, Yaradan səni üstümüzdən əskik etməsin, - dedi.

Dörd gündən sonra İlqar xəstəxanadan çıxdı. Yarası ağrıyırdı. Ayaq üstə çox dayana bilmirdi. Sevinc işdən sonra ona baş çəkir, bazarlıq edir, yeməklərini bişirirdi.

Bazar günü idi. Sevinc bazarlıq etmişdi. Bazarlığın pulunu İlqar stolun üstünə qoymuşdu. Sevinc pulları götürmək istəmirdi:

- Sənin maaşın mənimkindən azdır. Hər gün gəlirim olur, sən isə maaşa işləyirsən...

İlqarın fikrə getməsi Sevincin narahatlığına səbəb oldu; qollarını İlqarın boynuna doladı:

- İndidən pul söhbəti etməyək, bir yerdə yaşayandan sonra ikimizin də cibi eyni olacaq.

İlqar Sevincin üzündən öpüb pulu onun çantasına qoydu:

- Allah qoysa ailə quraq, o məsələlərə baxarıq.

- Nə vaxt ailə quracağıq?

İlqar onu intizarda qoymadı:

- Gələn il evlənər, subaylığın daşını atarıq.

- Onda nişanlanaq.

İlqar bir xeyli fikirləşib:

- Nişanlanmağa nə ehtiyac var. Onsuz da bir-birimizi tanıyırıq.

Sevinc razılaşmadı:

- Nişanlanaq, qohumlar da bilsinlər ki, mən nişanlıyam.

İlqar etiraz etmədi:

- Sən deyən olsun.

Sevinc evlərinə qayıtmışdı, əhvalı yerindəydi. Aynur xanım qızından nişan məsələsini soruşdu:

- Dediklərimi İlqara çatdırdın? - Azca duruxub soruşdu: - Nə dedi?

Sevinc çantasını divanın üstünə atdı:

- Mən deyəndən sonra nə deyə bilər? Sənin qızın elə-belə qızlardan deyil, İlqar mənim sözümdən çıxmaz.

Aynur xanım qızını qucaqladı:

- Gör, sən kimin qızısan? Elə et ki, keçmişimizi qurdalamasınlar, İlhamın kim olduğunu öyrənməsinlər.

Sevinc anasını arxayın etdi:

- Ay ana, narahat olma. Ailə qurana kimi heç nədən xəbərləri olmayacaq. Bir uşaq olandan sonra da İlqar məndən ayrılmayacaq.

İş yerində yoldaşları İlqarın işə qayıtmasına sevinirdilər. Şəmsiyyə, Marina, Kəmalə, Sədaqət, Bayram, Əzizağa, Elmira İlqarın otağına toplaşıb ona cansağlığı arzuladılar. İlqar onların şöbə müdiri idi. İşçilərinin tərəfini verməzdi, həmişə onları müdafiə edərdi. İşçilər İlqarın Sevinc adlı bir qızı istədiyini bilmirdi. Hər birinin ürəyində, könlündə İlqara qarşı məhəbbət, istək var idi. Bir gün Marina Spivak İlqara dedi: - Yoldaş Hüseynov, şöbəndə gözəl, ağıllı qızlar var, birini seç evlən, biz də toyunda iştirak edək.

İlqar zarafata keçdi:

- Öz ayağınla gəlmisən, bəlkə səninlə ailə qurum?

Marina İlqarın zarafat etdiyini bilirdi:

- Sizi yaxşı tanıyıram, başqa millətdən olan qızla ailə qurmazsınız. Həmişə öz millətinizə üstünlük verirsiniz. Bu, çox yaxşı haldır. Elə buna görə də sizi çox istəyirəm. Şəmsiyyə, Elmira, Sədaqət yaxşı insanlardı. Sizi də çox istəyirlər.

İlqar Marinanın əlindən tutdu:

- Sizləri öz bacılarım bilirəm. Bir də bu haqda danışmayaq.

* * *

Əsəd kişi Bakıya gəlmişdi. İsti adamın canını yandırırdı. Qohumlar yığışıb İlqara nişan mərasimi keçirdilər. Hər kəs sevinc içərisindəydi. Sevinc də barmağındakı bahalı üzüyə baxıb sevinirdi.

İlqarla Sevinc işdən sonra əl-ələ tutub Bakını, Xəzərin sahillərini doyunca gəzir, xoş günlərini yaşayırdılar. Nişandan üç ay keçmişdi. Əsəd kişi oğlunun yanına gəlmişdi. Şəhəri birlikdə gəzdilər, İlqar atasına ayaqqabı, köynək aldı. Hər dəfə o, mağazaya girəndə Əsəd kişi etiraz edirdi:

- Oğlum, mənim heç nəyə ehtiyacım yoxdur. Özünü xərcə salma.

İlqar atasının qoluna girir, şirin dilini işə salırdı:

- Oğul payıdır, götürməsən küsərəm, on altı il sən mənə paltar, kitab, dəftər almısan, indi o borcları mən yavaş-yavaş qaytarmalıyam.

Əsəd kişi oğlunun tərbiyəsindən çox razı idi. Bakıya gəldiyinin ikinci günü Əsəd kişi təzə qohumlarına baş çəkdi. Onu Nuranə xanım qarşıladı. Bir-birlərindən hal-əhval tutdular. Bu görüş Əsəd kişini heç açmadı. Aynur xanımın özünü qəribə aparması, İlhamla zarafatları, açıq-saçıq danışıqları Əsəd kişinin xoşuna gəlmədi. Kor-peşiman oğlunun yanına qayıtdı. İlqar atasının dilxor olduğunu görüb təlaşlandı:

- Nə olub ata, qanın yaman qaradır.

Əsəd kişi köksünü ötürdü:

- Səhv eləmişik, oğul, bu iş gərək belə olmayaydı. - Küskün halda başını buladı: - O arvad salamat adama oxşamır, eləsinin qızı da özü kimi olacaq, o qızla ailə qursan belə, o arvad sizin xoşbəxt olmağınıza imkan verməyəcək. Bəlkə də Sevinc yaxşı qızdı, amma anası...

İlqar atasının dedikləri ilə razılaşmadı. Təkidlə dedi: - Ailə qursam, ancaq Sevinclə quracam. Başqasını istəmirəm.

Əsəd kişi oğlu ilə açıq danışdı:

- Özünü məhv eləmə, yazıqsan, nişanı qaytaraq, özünə layiq bir qız tap.

İlqar atasına “yox” dedi. Əsəd kişi küsüb rayona qayıtdı.

İlqar ömründə atasını incitməmişdi. Ürəyi ağrıyırdı. Bütün günü işdə üzü gülmədi, könlü açılmadı. Axşam yatağına uzansa da, gözlərinə yuxu getmədi. Atasının narazı baxışları İlqara çox ağır gəlirdi. Bir gün qəribə yuxu gördü. Dədə Qorqud qiyafəsində yuxusuna nurani bir kişi gəlib, İlqarı sorğu-suala tutdu:

- Sən o kişini niyə incitdin?

- Atamı deyirsən?

- Hə, atanı deyirəm, sən fikirləşdiyin iş düzəlməyəcək. O qızla ailə qura bilməyəcəksən.

- Axı, mən Sevinci çox istəyirəm, onsuz yaşaya bilmərəm.

- Yaşaya bilərsən, atanı nahaq incitdin. - Əlində tutduğu əşyaya işarə etdi: - Bu əsanı görürsən?

- Bu əsanı sağ gözündən keçirərəm solundan çıxar, yaxşı yadında saxla, bu iş düzəlməyəcək...

İlqar yuxudan oyananda ağ paltarlı nurani kişi yoxa sıxmışdı. O gecə səhərə kimi özünü qınadı. Şübhələr ürəyini qurd kimi yeyirdi. Atasının küsüb getməyi, gördüyü yuxu onu düşünməyə vadar edirdi. Ürəyinə xal düşmüşdü:

- İlham kimdi, nəyinizdi deyəndə Sevinc: - Dayım oğludur, bizdə qalır, - dedi.

İlqarın şübhələri günbəgün artırdı. Sevinclə arabir görüşürdülər. Aralarında əvvəlki mehribançılıq da yox idi. Sevinc İlqarın davranışını başa düşmürdü. Hər dəfə də İlqarın əlindən tutanda:

- Elə bil istiliyin azalıb, məni əvvəlki kimi istəmirsən, - deyirdi.

İlqar onu incitmək istəmir, birtəhər yola verirdi:

- İşim çoxdur, yoruluram, dincəlməyə ehtiyacım var deyir, onu inandırmağa çalışırdı.

Bir dəfə İlham Sevinci öz maşınında poliklinikaya aparmışdı. İlqar da orada iclas keçirməyə getmişdi. Qapıda rastlaşdılar. İlham İlqarla əl tutub görüşdü. Sevinc üzünü İlhama tutdu:

- Sağ ol, İlyışa, axşam evdə görüşərik.

İlqar Sevincə üz verməyib iclas keçirilən otağa daxil oldu. Vaxtın necə keçməyinin fərqində deyildi. Bu əhvalat onu lap əsəbiləşdirmişdi.

Sevincin dayısı icraiyyə komitəsində işləyirdi. İlqarın xətrini çox istəyirdi. İlqar zəng edib görüşmək istədiyini deyəndə Sərxan müəllim gülümsünüb:

- Komsomol, nə vaxt istəsən gəl, bütün günü işdə olacam, - dedi.

İlqar axşamüstü Sərxan müəllimlə görüşdü. Bir-birlərindən hal-əhval tutdular. Sərxan müəllim İlqarın dilxor olduğunu görüb soruşdu:

- Yaman bikefsən, dənizdə gəmilərin batmayıb ki?!

- Yox, gəmilərim batmayıb, özüm batmışam.

- Sözlü adama oxşayırsan?

İlqar özünü ələ aldı:

- Sərxan dayı, sizdən bir söz soruşacam, amma xahiş edirəm mənə düzünü deyin, çünki bu, həyat məsələsidir.

- Buyur, oğlum, nə istəyirsən soruş. Özün də bilirsən qohumun Şirin müəllimlə dostam, çəkinmə, sözünü de.

- Aynur xanımın yanında qalan İlham sizin oğlunuzdur, yoxsa Arif dayının?

Sərxan müəllimin sifəti qaraldı, ürəyi sancdı, qrafindən stəkana su töküb içdi. Pəncərənin qarşısına keçdi, bir xeyli müddət sakitcə dayandı. Bir neçə dəqiqədən sonra kreslosunda əyləşdi, kişinin beli sanki bükülmüşdü, güclə danışırdı:

- Aynur kaş bacımız olmayaydı, öləydi, adımızı batırmayaydı. Yaxşı ailəsi vardı. Yoldaşı zəhmətkeş bir adamdı...

İlqar dözmədi:

- Sevinc mənə deyib ki, atam çoxdan ölüb...

Sərxan müəllim onu sakitləşdirdi:

- Yalan deyib, ölməyib, Sabunçuda yaşayır. Mənə qulaq as, sözümü kəsmə.

- Baş üstə.

- Sevincin iki qardaşı, bir bacısı var. Montində həyət evində yaşayırdılar. İlham onların həyətində kirayədə qalırdı. Necə oldusa Nuranə ilə dostlaşdılar. Sevincin atası bunu biləndə ayrıldılar. Bir qız, bir oğlan atası ilə, Sevinclə qardaşı isə anası ilə getdi. O vaxtdan biz bacımızla danışmırıq. Elə indi də İlhamla yaşayır. Ərə gedəsi qızı, evlənəsi oğlu var. Bu adam heç kimdən utanmır. Mən hər şeyi olduğu kimi sənə danışdım. Özün bilən məsləhətdi. Amma bu dediklərimi məndən eşitməmisən...

İlqar Sərxan müəllimə təşəkkür etdi:

- Sağ olun, məni böyük bir bəladan qurtardınız, ömrüm boyu sizə minnətdaram.

Sərxan müəllimlə sağollaşıb metroya düşdü. Şirin-şirin söhbət edən oğlanları, qızları görəndə ürəyi çatlayırdı. Sevincin yalanları ürəyini üzürdü. Bu illər ərzində onu tanımamağına yanıb-yaxılırdı. Atasına haqq qazandırırdı:

- Sənin üzünə necə çıxacam, ata. Gözlərinə necə baxacağam? Soyutduğum ürəyini necə isidəcəm?

Suallarına cavab tapa bilmirdi. Ətrafındakı adamlardan utanmasaydı oturub uşaq kimi ağlayar, ürəyini boşaldardı.

Bir neçə gün beləcə keçdi. Gecə-gündüz atasını düşünürdü: - Görəsən məni bağışlayacaqmı?

Avqustun əvvəlləri idi. İlqar məzuniyyətə çıxmışdı. Kəndə getməyə üzü gəlmirdi.

Sevinclə bir aydan çox idi görüşmürdü. Hər dəfə bir bəhanə gətirirdi.

*(Davamı var)*